

LALƏ İSMAYIL

# POEZIYA ÇƏLƏNGİ

Əli ətəklərdə, gözü qoruqda,
Oyur ocağımı köz oğruları.
Kəsib bənd-bərəni, durub marıqda,
Elə him arayır söz oğruları.

Daşlayır uzaqdan gəlib-gedəni,
Doldurur haramla xəşə gödəni.
Susdurur halından giley edəni,
Meydanı talayır öz oğruları.

Önündə müntəzəm əyməsən başı,
Süzdürər baxışı, endirər qaşı.
Görməzdən gələrək axan göz yaşı,
Salar canımıza tez oğruları.

Haramxor belinə gəlməyir toqqa,
Sehirbaz sayağı çıxarır hoqqa.
Qurban eyləyirlər haqqı nahaqqa,
Cəza məzlumundur, iz oğruların.

Daçalar, villalar, sığmırlar evə,
Dönübdür hərəsi təpəgöz divə.
Öküzlər yetməyir, az gəlir dəvə,
Günlük yem olmuşuq biz oğruların.

Endir, qərar versin, dindir şahımı,
Çəkməyə hazıram, hər günahımı.
Tanrım, bircə kərə dinlə ahımı,
Özün əlin bizdən üz oğruların.

***

Sən iyirmi, mən çəkirəm qırxımı,
Adlamışam çoxdan ömür arxımı,
Fələk dala xırıldadır çarxımı,
Məndə payız, səndə yaza əlvida.

Mənzil uzaq, ömür yarı, yol haça,
Daha salma qoca ömrü qov-qaça,
Çəlik gündə gileylənir, "ay qoca",
Dönür qədəm səndə yaza, əlvida!

Ana desən söyləyərəm, "can bala",
Olma naşı, ədəb-ərkan qan, bala,
Nəsihətdən ötüşmə gəl yan, bala,
Mən yazıram, sən də yaz a, əlvida!

Salmayaraq əldən ələ, deyirəm,
Söz gəlişi, elə-belə, deyirəm.
İncimə ha, gülə-gülə deyirəm,
Kəm ağıldan, sən dayaza, əlvida.

***

Bir payız yağışı yağdı könlümə,
Sular pıçıldayıb aldatdı məni.
Cahana sığmayan, sığdı könlümə,
Oyub için-için qocaltdı məni,
Dünyanın şələsin daşıdım yenə.

Kürədə qızdırıb, daşda üyütdü.
İsladıb dilində, dişdə üyütdü,
Gözündən əridib, yaşda üyütdü,
Dəyirman çarxı tək fırlatdı məni,
Dözüb çiləsinə, yaşadım yenə.

Başımı ağardıb qara götürdü,
Çapıb paralayıb, yara götürdü
Aldadıb ruhumu, dara götürdü,
Endirib təzədən ucaltdı məni,
Dilimdə türkülər oxşadım yenə.

Əcəlmi səsləyən?! bilmirəm niyə,
Çıxıb varlığıma mələklər yiyə,
"Lalə, əllərini aç, uzat" deyə,
Tərpədib, yuxudan oyatdı məni,
Qaldı quru adım, boş adım yenə.

***

Yolçusuyam, yolda ömür karvanım,
Əcəl tutub gözlərimdən dən çəkir.
Bu dünyada sona yetib dövranım,
Əyrim, düzüm, Haqq tərəzim tən çəkir.

Əməllərim sarır dörd bir yanımı,
Qorxu düşüb, azar alır canımı.
Göz yaşımda yuyub günahlarımı,
Dodağımda təbəssümü şən çəkir.

Səbri bitib daha ayın, ilin də,
Qovruluram mən Fələyin felində,
Savabımı bayraq edib əlində,
Alışmayım deyə oddan yan çəkir.

Bəxt əzəldən üz göstərmir hərəyə,
Qəm yükümü şələyirəm kürəyə,
"Vida"deyib, boylanıram geriyə,
Bir baxıram, gözüm yolda "sən" çəkir.

***

Burulub, döngələr dolanıb keçir,
Kül səpir gözünə çoxu dünyanın.
Doymadan harama bulanıb keçir,
Üfləyir üzünə "xox"u dünyanın.

Dilə saxta tərif əkib sözlərin,
Çöküb qarşısında büküb dizilərin,
Zilləyib, gözünə dikib gözlərin,
Acına zülm edir toxu dünyanın.

Ömür karvanını yolda əyləyib,
Düzü tapdalayıb, haqqı çeynəyib,
Bəndəni nəfsinə kölə eyləyib,
Tuşlanıb Tanrıya oxu dünyanın.

Ədalət tapmazsa əgər h?kimi,
Olmasa xəstəyə çarə həkimi,
Suyu qurudulmuş dəyirman kimi,
Sovrula həm varı, yoxu dünyanın.

***

Parçalana-parçalana gedirik.
Daha asan yem olarıq qurda biz.
Öz dişimiz, özümüzü didirik,
Bu gedişlə zor dönərik yurda biz.

Biri düşür, təpik vurur əllisi,
Əlisindən papaq qapır Vəlisi,
Ağıllısı kölə, kütdür dəlisi,
Əgər dönsək, kor dönərik yurda biz.

Söz meydanı olsa, varıq savaşa,
Haqq deyəni haqsız basarıq daşa,
Özgəsini öpüb qoyarıq başa,
Özümüzə xor dönərik yurda biz.

Nəzir-niyaz aparırıq pirlərə,
Arxa durub, can deyirik Kir'lərə,
Bu ölkədə baş qaldıran ərlərə,
Qurub tələ, tor, dönərik yurda biz.

Bircə addım gedəmmirik qabağa,
Başda tumar, alışmışıq sıvağa,
Od olmaqçün qeyrət adlı ocağa,
İşıldasa qor, dönərik yurda biz.

Silah paslı, yəhərsizdir atımız,
Kök pərişan, qəm eyləyir zatımız,
Xəcalətli qalıb yeddi qatımız,
Bir onlardan sor, "gederik yurda biz"?

Lalə susub, lal dayanır, sən də sus!
Sıx dişini, güd məqamı, tində pus,
Kef-damaqda, hiylə, kələk, dələduz,
Yat yuxuda, gör, gedərik yurda biz.

***

Varmı əhvalımdan bir xəbər bilən,
Təpədən dırnağa mən yaş olmuşam.
Budağından qopub, arxamca gələn,
Bir sarı yarpağa yoldaş olmuşam.

Küləklə sovrulan o sarı yarpaq,
Bir gün biləcəkmi dərd olub mənə?!
Yarımçıq yazımla tən yarı yarpaq,
Düşüb, ayağıma sarılıb yenə.

Ömrü yelə verdim "döz" deyə-deyə,
Sən necə yaşatdın didərgin bizi?!
Yumub gözlərini, görmədin, niyə,
Hönkürüb, arxamca ağlayan izi?!

Yurdsuzam, yer mənə olmayır yiyə,
De! Özümlə hara aparım səni?
Dərdinə təzə dərd olmayım deyə,
Qaçım, təzə dərddən qoparım səni.